**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№366/5** **24 iyun 2024-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının xarici ölkələrin audit və mühasibat qurumları arasında əlaqələrin genişləndirilməsi, habelə əməkdaşlıq haqqında niyyət protokollarında, sazişlərdə və anlaşma memorandumlarında nəzərdə tutulmuş tədbirlərdən irəli gələn vəzifələrin icrasının təmin edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin proqram xarakterli göstərişlərini rəhbər tutaraq, müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək və beynəlxalq təcrübədən daha səmərəli bəhrələnmək zərurətini nəzərə alaraq, “Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2021-2030-cu illər)” və Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 7.5-ci “Xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrin genişləndirilməsi” və 7.6-cı “Əməkdaşlıq haqqında niyyət protokollarında, sazişlərdə və anlaşma memorandumlarında nəzərdə tutulmuş tədbirlərdən irəli gələn vəzifələrin icrasının təmin edilməsi” bəndlərinə əsasən, Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP), Hindistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAI) və İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu (ICPAI) arasında 2022-ci və 2023-cü illərdə imzalanmış Anlaşma Memorandumlarında nəzərdə tutulmuş müddəaların reallaşdırılmasına dair Sədrin müşaviri, Palatanın Şurası yanında Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitənin sədri F.Qarayev tərəfindən cari ilin I yarımilliyində görülmüş işlər barədə hesabatı dinləyərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 7.5-ci “Xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrin genişləndirilməsi” və 7.6-cı “Əməkdaşlıq haqqında niyyət protokollarında, sazişlərdə və anlaşma memorandumlarında nəzərdə tutulmuş tədbirlərdən irəli gələn vəzifələrin icrasının təmin edilməsi” bəndlərinin icrasına dair hesabat bəyənilsin (əlavə olunur).
2. Sədrin müşaviri, Palatanın Şurası yanında Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitənin sədri F.Qarayevə tapşırılsın ki, cari ilin II yarımilliyində Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Türkiyə Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB), Türkiyənin Mühasibat Uçotu və Audit Standartları üzrə İctimai Nəzarət Qurumu (KGK), Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP), İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu (ICPAI) və Hindistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAI) ilə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində işlər davam etdirilsin.
3. Auditorlar Palatasının struktur bölmələrinə (E.Behbudova, Q.Əhmədov) tapşırılsın ki, Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 7.6-cı bəndinin icrasına dair təsdiq olunmuş plan-proqramın icrası gecikdirilmiş 1-ci bəndinin icrasını bir ay müddətində təmin etsinlər.
4. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**